**«TƏSDİQ EDİLMİŞDİR»**
Azərbaycan Respublikasının Prezidenti
yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi
Əmr 036
«06» mart 2000-cı il
Sədr _______________ H. Babayev

# İnvestisiya fondunun idarəedilməsi barədə müqaviləyə dair

# T Ə L Ə B L Ə R

## I. Ümumi müddəalar

1.1. Bu tələblər «İnvestisiya fondları haqqında» Azərbaycan Respublikasının Qanununun, Azərbaycan Respublikası Preziden-tinin 14 may 1997-ci il tarixli 579 nömrəli Fərmanı ilə təsdiq edilmiş «İxtisaslaşdırılmış çek investisiya fondları haqqında Əsasnamə»nin və Azərbaycan Respublikası Prezidentinin 26 iyul 1999-cu il tarixli 161 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında Əsasnamə»nin tələblərinə müvafiq olaraq hazırlanmışdır.

1.2. İnvestisiya fondunun idarəedilməsi barədə müqavilənin əsas müddəaları – bu müqavilənin əsas şərtlərini və Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan digər şərtləri müəyyən edir. İnvestisiya fondunun idarəedilməsi barədə müqavilə investisiya fondu və fondun müdiri arasında bağlanılır və aşağıdakıları nəzərdə tutur.

## II.Müqavilənin predmeti

Fond bağlanan müqavilənin şərtlərinə uyğun olaraq fond müdirinə investisiyaların idarə edilməsi, fondun qiymətli kağızlar portfelinin formalaşdırılması və investisiya sahəsində məsləhətçi funksiyalarını həvalə edir. Fond müdiri həmin xidmətləri göstərməyə razılıq verdiyini təsdiq edir.

Fond müdirinin göstərdiyi xidmətlərin tərkibi və həcmi müqavilə ilə müəyyən olunur.

## III. Tərəflərin hüquq və vəzifələri

3.1. Fond müdiriyyətinin (müdirinin) vəzifələri:

investisiyaların və qiymətli kağızlar portfelinin, habelə fondun digər əmlakının səmərəli idarə olunmasını tə'min etmək;

müşahidə şurasının müəyyən etdiyi müddətdə fondun investisiyalarına dair qə'bul etdiyi qərarlar haqqında ona yazılı mə'lumat vermək;

səhmdarların illik ümumi yığıncaqlarından əvvəl fondun maliyyə hesabat layihələrini və investisiya sahəsində təklifləri-ni müşahidə şurasına təqdim etmək;

müşahidə şurasına onun müəyyən etdiyi müddətlərdə və formada fondun vəsaitləri hesabına hesabat dövründəki xərclər haqqında yazılı mə'lumat təqdim etmək;

fondun inzibati fəaliyyətini həyata keçirmək, fondun yazışmalarını və operativ işləri icra etmək;

fondun investisiyalarına dair mə'lumatların məxfiliyini tə'min etmək;

sənədləşmənin düzgün aparılmasını və sənədlərin saxlanıl-masını tə'min etmək;

səhmdarların reyestrinin düzgün aparılmasına nəzarət etmək;

fondun səhmdarlarına dividendlərin tam və vaxtında veril-məsini tə'min etmək;

fondun fəaliyyəti ilə əlaqədar informasiya bülletenləri, kitabçalar və reklam xarakterli başqa materialların hazırlan-ması, nəşr edilməsi və yayılmasına nəzarət etmək;

fond fəaliyyətinin reklam olunmasına şərait yaratmaq və müşahidə şurası ilə öz arasındakı razılığa əsasən digər xidmətlər göstərmək;

fondun investisiya siyasətinə dair məsələlər üzrə müşahidə şurası ilə müntəzəm olaraq məsləhətləşmələr aparmaq;

fondun hesabatlarının düzgün və vaxtında tərtib olunmasına nəzarət etmək və rüb başa çatdıqdan sonra 15 gün ərzində müşahidə şurasına aşağıdakıları təqdim etmək:

a) hesabat dövrünün əvvəlinə və sonuna fondun mühasibat balansı, gəlirlərin istifadəsinə dair hesabatı, maliyyə nəti-cələri haqqında hesabatı və digər mühasibat hesabatları;

b) hesabat dövrü ərzində qiymətli kağızlar və fondun digər aktivləri ilə aparılan əsas əməliyyatların siyahısını;

v) fond müdirinin direktorları və onun afilə edilmiş şəxslərinin tərkibində edilən dəyişikliklər barəsində mə'lumat-ları.

Maliyyə ilinin hesabatı fondun müstəqil auditoru tərə-findən təsdiq edilməlidir.

Müşahidə şurası fond müdiri ilə müntəzəm qaydada məs-ləhətləşmələr aparılmasında iştirak etmək üçün öz üzvlərindən birini və ya bir neçəsini tə'yin edir.

3.2. Fond müdirinin hüquqları:

qiymətli kağızlar və qiymətli kağızlara investisiya edilmək üçün pul vəsaitləri ilə fondun adından əqdlər bağlamaq, Azərbaycan Respublikasının qanunvericiliyinə, fondun nizamnaməsinə və investisiya bəyannaməsinə müvafiq qaydada fondun aktivləri ilə əməliyyatlar aparmaq;

depozitara sərəncamlar vermək;

«İnvestisiya institutlarının xalis aktivlərinin qiymətlən-dirilməsi haqqında Əsasnamə»yə və fondun investisiya bəyanna-məsinə müvafiq qaydada fondun fəaliyyəti üzrə xərcləri ödəmək üçün onun pul vəsaitlərindən istifadə etmək;

idarəetmə orqanlarında, müəssisə, birlik, səhmdar cəmiy-yətləri və digər təşkilatlarla əlaqədə fondu təmsil etmək;

müşahidə şurasının iclaslarında iştirak etmək üçün səsvermə hüququ olmayan müşahidəçi nümayəndə ayırmaq;

bu müqaviləyə və fondun nizamnaməsinə müvafiq olaraq öz vəzifələrinin icrası üçün fondun adından rəsmi sənədlərə imza etmək və digər səlahiyyətlər üçün müşahidə şurasından e'tibar-namə tələb etmək.

3.3. Fond müdiri fondun vəsaitləri hesabına bilavasitə və ya üçüncü şəxs vasitəsilə aşağıdakı əqdlər bağlamaq hüququna malik deyildir:

özü, ona nəzarət edən, yaxud onun nəzarəti altında olan şəxslər tərəfindən buraxılan qiymətli kağızlarla bağlı əqdlər;

müşahidə şurasının razılığı olmadan özünün iqtisadi marağı olan müəssisələrin buraxıldığı qiymətli kağızlarla bağlı əqdlər.

3.4. Fond müdiri digər investisiya fondları ilə maliyyə sazişləri və müqavilələri bağlaya bilər, o bu barədə hər investisiya fondunun müşahidə şurasını mə'lumatlandırmalıdır.

3.5. Müşahidə şurasının icazəsi olmadan fond müdiri nizamnamə kapitalında fondun payı 5 və yuxarı faiz olan müəssisənin qiymətli kağızları ilə həyata keçirilən əqdlərlə bağlı hər hansı üçüncü şəxsə məsləhət verə bilməz.

3.6. Nizamnamə kapitalında fondun payı 5 və yuxarı faiz olan müəssisələrlə fondun müdiri və vəzifəli şəxsləri tərəfindən bağlanan hər hansı müqavilə müşahidə şurası tərəfindən bəyənilməlidir.

3.7. Fondun müdirinin Azərbaycan Respublikası qanunveri-ciliyi, fondun nizamnaməsi və investisiya bəyannaməsi ilə qadağan olunmuş fəaliyyət növləri ilə əlaqadar qərarlar qə'bul etmək ixtiyarı yoxdur.

3.8. Fondun müdiri fondun investisiya portfelinin forma-laşdırılması və investisiyaların idarə edilməsi üzrə qəbul et-diyi qərarlara görə tam məs'uliyyət daşıyır.

Müşahidə şurası üzvlərinin qiymətli kağızlar, o cümlədən özəlləşdirmə çekləri (çek investisiya fondları üçün) və fondun pul vəsaitləri ilə bağlı əqdlər həyata keçirmək ixtiyarı yoxdur.

3.9. Fondun hüquq və vəzifələri:

fond müdirinin yazılı tələbi ilə bu müqavilə, investisiya bəyannaməsi və fondun nizamnaməsinə müvafiq olaraq, ona öz vəzifələrinin icrası üçün e'tibarnamə ilə rəsmi sənədlərə imza etmək ixtiyarı verilməsini tə'min etmək;

bu müqavilə ilə müəyyən olunmuş vəzifələrin fond müdiri tərəfindən yerinə yetirilməsinə nəzarət etmək.

3.10. Fond müdiri öz vəzifələrini tam və ya lazımi səviyyədə icra etmədikdə, fond müqaviləni poza bilər.

3.11. Fondun müşahidə şurası yalnız onun icazəsi ilə aparılması mümkün olan əməliyyatların siyahısını müəyyən etmək hüququna malikdir.

IV. Fondun müdirinin mükafatlandırılması

4.1. Göstərdiyi xidmətlərə görə bu müqaviləyə əsasən fond mü-diri fond tərəfindən mükafatlandırılır.

4.2. Fond müdirinə verilən illik mükafatın maksimum məbləği investisiya fondunun xalis aktivlərinin orta illik dəyərinin 5 faizdən çox olmamalıdır. Fondun xalis aktivlərinin orta illik dəyəri il ərzində hər ayın axırına fondun xalis balans aktivlərinin cəmini on ikiyə bölməklə hesablanılır.

## V. Məs'uliyyət

Bu Tələbləri pozanlar Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq məs'uliyyət daşıyırlar.

## VI. Qüvvəyə minmə qaydası